

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 113 (21.523)

*22 iyun 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonu ərazisində əsaslı şəkildə yenidən qurulan Maştağa-Bilgəh yolunun, həmçinin Nardaran qəsəbəsində Abşeron və Nəsrulla Əsgərov küçələrinin açılışında iştirak edib.

* * *

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonunun Nardaran qəsəbəsində sakinlərlə görüşüb.

* * *

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu rayonunun Nardaran qəsəbəsindəki "Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanış olub.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi Azərbaycanın ən qədim dini məbədlərindən biridir. VIII əsrdə inşa olunan bu ziyarətgah əhali və dövlət tərəfindən bu günədək qorunub saxlanılıb.

Qeyd edək ki, 1994-cü ildə ulu öndər Heydər Əliyev bu müqəddəs məkanı ziyarət edib.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirilib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



İyunun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavla görüşmüşdür.

Ali Məclisin Sədri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək demişdir ki, Azərbaycan-İsrail əlaqələri uğurla inkişaf etdirilir.

Ali Məclisin Sədri səfirin Azərbaycan ilə İsrail arasında əlaqələrin davam etdirilməsinə göstərdiyi təşəbbüsü qeyd etmiş, qonağa diplomatik fəaliyyətində uğurlar arzulamışdır.

Dan Stav göstərilən səmimi münasibətə görə minnətdarlıq etmiş, Naxçıvana səfərin və muxtar respublikanın inkişafının onda böyük təəssürat yaratdığını bildirmişdir. Qarşılıqlı əməkdaşlıqdan danışan səfir Naxçıvanla turizm sahəsində əlaqələrin inkişafının əhəmiyyətini vurğulamış, diplomatik fəaliyyəti dövründə münasibətlərin daha da genişləndirilməsinə çalışacağını qeyd etmişdir.

Görüşdə əlaqələrin gələcək inkişafı üçün bundan sonra da səylərin göstəriləcəyi vurğulanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində təmir-bərpa işləri aparılmışdır





Muxtar respublikada ziyarətgahların, dini-mədəni abidələrin bərpası diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı elan edilməsi digər amillərlə yanaşı, həm də bu sahədə görülən işlərin nəticəsidir. Bu il də muxtar respublikada tarixi-mədəni irsimizin qorunub saxlanılması istiqamətində tədbirlər davam etdirilmiş, "Əshabi-Kəhf" ziyarətgahında təmir-bərpa işləri aparılmışdır.

İyunun 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksinə gəlmiş, burada görülən işlərlə maraqlanmışdır.

Bildirilmişdir ki, çoxəsrlik tarixi keçmişimizin və dini-mənəvi dəyərlərimizin ifadəsinə çevrilən "Əshabi-Kəhf"də ilk dəfə ümummilli lider Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə bərpa işləri aparılmışdır. Son illər isə burada geniş yenidənqurma, bərpa və abadlıq işləri görülmüşdür. Ziyarətgahın ərazisində əl işlərinin və yerli məhsulların satış mağazaları fəaliyyət göstərir. Bu il də abidədə kompleks təmir-bərpa işləri aparılmış, su təminatı və işıqlandırma sistemləri yenidən qurulmuş, ərazi abadlaşdırılmış, zəvvarlar üçün hərtərəfli şərait yaradılmışdır.

"Əshabi-Kəhf" turistlərin də böyük marağına səbəb olur. Hər il buranı Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn minlərlə zəvvar, turist və qonaq ziyarət edir.

Ali Məclisin Sədri abidəyə mütəmadi diqqətin davam etdirilməsinin vacibliyini bildirmiş, ərazinin təmiz saxlanılması və yaşıllıqların artırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şərurun daha üç kəndində kompleks quruculuq işləri həyata keçirilir

*Son illər Şərur rayonunda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr bölgəyə böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib. Rayon mərkəzi, kəndlər füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb.*

Hazırda rayonun Arbatan, Çəmənli və Arpaçay kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilir. "Artay" LTD Şirkətinin inşaatçıları Arbatan kəndində məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binaların inşası ilə məşğuldur. 234 şagird yerlik məktəbin və kənd mərkəzinin binaları iki, xidmət mərkəzinin binası birmərtəbəlidir. Aprel ayından tikintisinə başlanan obyektlərdə çalışan inşaatçıların texniki təhlükəsizliyi təmin edilib, obyektlərə daimi su xətti çəkilib, inşaat işlərinin keyfiyyətlə aparılması üçün hərtərəfli şərait yaradılıb. Hazırda tikinti işləri davam etdirilir.

Çəmənli kəndində də yeni obyektlərin inşası aparılır. Bu yaşayış məntəqəsində yaxın aylarda yeni məktəb, kənd və xidmət mərkəzlərinin binalarından istifadə olunacaq. 360 şagird yerlik kənd tam orta məktəbinin binası üç mərtəbədən ibarət olacaq. Dövlət qurumlarının fəaliyyət göstərəcəyi kənd mərkəzi ikimərtəbəli nəzərdə tutulub. Çəmənli sakinlərinə daha bir hədiyyə olan birmərtəbəli xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi yerləşəcək. Bu quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Adıçəkilən tikinti kollektivinin bir qrup inşaatçısı isə rayonun Arpaçay kəndində kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldur.

Quruculuq tədbirləri çərçivəsində rayonda yol infrastrukturunun yenilənməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, Şərur Rayon Yol Təmir-Tikinti İdarəsinin inşaatçıları 5,4 kilometrlik Çərçiboğan-Arbatan, 6,7 kilometrlik Dərvişlər-Arpaçay-Çəmənli kəndarası yollarda yenidənqurma işlərini həyata keçirirlər.

**Xəbərlər şöbəsi**

***Zəngin təbiətə, qədim tarixi abidələrə, dünyada nadir olan təbii şəfa mənbələrinə, inkişaf etmiş Qərb ölkələrinə xas yüksək infrastruktura malik olan muxtar respublikamızın turizm potensialından səmərəli istifadə etmək bu günün aktual məsələlərindən biridir. Təbii sərvətlərdən fərqli olaraq turizm elə bir sahədir ki, necə deyərlər, bu sahədə tükənmə ehtimalı yoxdur. Əksinə, turist səfərlərinin sayı artdıqca, regionumuz kifayət qədər tanındıqca, xarici və ya yerli qonağın sayı da davamlı olaraq artır. Ona görə də turizm bu gün özünün əhəmiyyətinə görə bir sıra digər sahələri artıq geridə qoyub. Səbəb isə odur ki, turizmin inkişafı digər sahələrin də inkişafına ciddi təkan verir, yeni-yeni uğurlara yol açır.***

# Turistlərin muxtar respublikamız barədə ilk təəssüratlarının formalaşdığı sərhəd-keçid məntəqələrindən biri

## *Qərbə açılan qapımız olan Sədərək sərhəd-keçid məntəqəsindən reportaj*

Hər bir turistin istənilən ölkə, bölgə barədə ilk təəssüratları isə, heç şübhəsiz, sərhəd-keçid məntəqələrindən başlayır. Muxtar respublikamızdakı həmin məntəqələrdən ən əhəmiyyətlilərindən biri də Sədərək sərhəd-keçid məntəqəsidir. Qardaş Türkiyədən, o cümlədən Qərb ölkələrindən avtomobil yolu ilə muxtar respublikamıza gələn turistlər, həmçinin Şərq ölkələrinə səyahətə çıxanlar məhz Sədərək gömrük-keçid məntəqəsindən muxtar respublikamıza daxil olurlar. Bu isə o deməkdir ki, istənilən çatışmazlığı dərhal sezmək və dostları ilə bunları müzakirə etmək kimi xüsusiyyətlərə malik olan, tənqidə meyilli xarici ölkə vətəndaşlarının muxtar respublikamız barədə ilk təəssüratları da məhz buradan formalaşmağa başlayır. Sosial şəbəkələrin bütün dünyanı əhatə etdiyi bir dövrdə həmin "informasiya daşıyıcıları"nın rəyləri isə nəticəyə birbaşa təsir göstərir. Bütün bunları nəzərə alaraq Sədərək sərhəd-keçid məntəqəsindəki şəraitlə, buradakı mövcud vəziyyətlə tanış olmaq üçün ötən günlərdə Naxçıvan şəhərindən muxtar respublikamızın Türkiyə Respublikası ilə sərhədinə doğru yola çıxdıq.

Asfalt yolla şütüyən avtomobillə qısa zamanda xeyli yol qət etdik. Həqiqətən də, bu gün Naxçıvan-Sədərək magistral yolu yüksək səviyyədə qurulub. Magistral yolun hər iki tərəfində yaşıllıq zolaqlarının salınması Naxçıvanın möcüzəli təbiətinə ayrı bir yaraşıq verib. Ötən illəri xatırladım. Keçən əsrin 90-cı illərinin əvvəllərində, işığın, qazın olmadığı bir dövrdə muxtar respublika əhalisi məcburiyyət qarşısında qalaraq yanacaq kimi ağaclardan istifadə edirdi. O zaman yol kənarlarında bir dənə də olsun ağac qalmamışdı. Həmin vaxtı hər birimiz bu mənzərəni ürəkağrısı ilə seyr edirdik. Bu gün isə yaşıllıqları görəndə insanın qəlbi dağa dönür... O vaxt desəydin ki, muxtar respublikada yol infrastrukturu bu səviyyəyə çatacaq, Naxçıvan-Sədərək yolu 4 şəridli olacaq, yol kənarları başdan-başa yaşıllıqlara bürünəcək, həkim məsləhəti olmadan adamı birbaşa psixiatrik xəstəxanaya aparardılar. Həm də aparan insana bərk-bərk tapşırardılar ki, bu adam çarəsiz dərdə düçar olduğu üçün yolda fikrini dəyişib geri gətirmə, yazıqdır, qoy müalicə olunsun...

Budur, artıq Sədərək sərhəd-keçid məntəqəsinə yaxınlaşırıq. Uzaqdan diqqətimi burada aparılan quruculuq işləri cəlb edir. Dövlətimiz tərəfindən Sədərək sərhəd-keçid məntəqəsinin fəaliyyətinə və lazımi maddi-texniki bazanın yaradılmasına daim yüksək diqqət və qayğı göstərilib. 2005-ci ilin aprelində Sədərək Gömrük İdarəsi üçün yeni infrastruktur istifadəyə verilib, 2008-ci ilin iyun ayından isə Sədərək-Dilucu sərhəd-keçid məntəqəsi 24 saatlıq iş rejiminə keçirilib. Burada aparılan quruculuq işləri isə İpək Yolu üzərində yerləşən muxtar respublikanın tranzit imkanlarını daha da artıracaq və turizm potensialından səmərəli istifadəyə şərait yaradacaqdır. Sədərək Gömrük İdarəsi üçün yeni və müasir gömrük kompleksinin inşasına başlanılması da bu məqsədi daşıyır.





Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleksin inşası və xidmətin səmərəli təşkili üçün lazımi iş şəraitinin yaradılması istiqamətində görülən işlər Azərbaycan gömrük sistemində həyata keçirilən ən genişmiqyaslı layihələrdən biridir. 18 hektara yaxın ərazidə inşa olunan yeni infrastruktur "bir dayanacaq" prinsipinə uyğun qurulan, yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və rüsumsuz ticarət mağazasından ibarət müasir gömrük kompleksidir.

Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla sərnişin və minik, iki zolaqla yük nəqliyyat vasitələri hərəkət edəcək. Sərnişin keçid zalları kompleksin ortasında – üçmərtəbəli inzibati binanın birinci mərtəbəsində olacaq. Gömrük nəzarəti zonasında sərnişinlərin hərəkəti üçün tunellər yaradılacaq, yaşıl və qırmızı kanallar formalaşdırılacaqdır.

Gömrük nəzarətindən güzəştli qaydada keçməli olan şəxslərə xidmətin göstəriləcəyi binada və yeməkxanada tikinti işləri artıq yekunlaşdırılıb. Hazırda inzibati binanın, anbar və rəsmiləşdirmə zalının tikintisi davam etdirilir.

Sədərək sərhəd-keçid məntəqəsi üçün yeni gömrük kompleksinin qurulması xidmətin təşkili üçün lazımi şərait yaradacaq, gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsini təmin edəcək.

Buradakı yük xətti, əsasən, rəsmiləşmə zalı və anbar binasından ibarətdir. Tranzit və idxal istiqamətində gələn və əks-istiqamətdə hərəkət edən avtonəqliyyat vasitələrinin hərəkəti bir-birindən ayrı nəzərdə tutulub. Yük xətti üzərində iritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirməkdən ötrü X-Ray rentgen nəzarət-yoxlama kompleksi qurulub.

Sərhəd-keçid məntəqəsinə doğru gedirik. Burada Sədərək Gömrük İdarəsinin rəisi Mirməhəmməd Seyidov əməkdaşlarla söhbət edir, onları təlimatlandırır. Onunla sərhəd-keçid məntəqəsindəki yeniliklər barədə söhbət edirik. Deyir ki, muxtar respublikamızın digər sərhəd-keçid məntəqələrində olduğu kimi, Sədərəkdə də xidmətin səmərəli təşkili, gömrük nəzarətinin və rəsmiləşdirilməsinin avtomatlaşdırılmış qaydada minimum vaxt çərçivəsində həyata keçirilməsi Naxçıvana gələn turistlərin işini xeyli asanlaşdırıb. Belə ki, gömrük-keçid məntəqələrində sərhədi keçən şəxslərin gömrük qanunvericiliyinə dair məlumatlandırılması üçün Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən info-köşklər qurulub. Sərhədi keçən şəxslər bəyanetməni sərhəddə və ya sərhədi keçməmişdən əvvəl elektron qaydada həyata keçirə bilərlər. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet portalı üzərindən ***(www.dgk.nmr.az)*** vətəndaşların, turistlərin, o cümlədən xarici iqtisadi fəaliyyət iştirakçılarının işinin asanlaşmasını təmin edən elektron xidmətlər göstərilir.





Sərhəd-keçid məntəqələrində xarici vətəndaşların qeydiyyatı üçün ayrıca zolaqlar vardır. Sərnişin avtobuslarının, o cümlədən turist qismində muxtar respublikaya öz avtonəqliyyat vasitəsilə gələn xarici vətəndaşların sürətli keçidini təmin etmək üçün marşrut avtobusları və nəqliyyat vasitələri xüsusi ayrılmış xətlə gömrük nəzarəti zonasına daxil olurlar.

Sərhəd-keçid məntəqələrində tətbiq olunan "Yaşıl kanal" buraxılış sistemi vasitəsilə mallar güzəştli qaydada, yəni malların gömrük rəsmiləşdirilməsi zamanı Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük prosedurlarından azad olunmaqla gömrük ödənişləri alınmadan keçirilir. Mirməhəmməd Seyidov qeyd edir ki, fiziki şəxsin mallarını "Yaşıl kanal" buraxılış sistemindən istifadə etməklə gömrük sərhədindən keçirməsi onun əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli malların olmaması və bu malların gömrük orqanlarına şifahi bəyan edilməsi kimi qəbul edilir. Konklyudent bəyanetmə deyilən bu forma o mallara şamil edilir ki, həmin malların miqdarı və dəyəri Azərbaycan Respublikasının qüvvədə olan gömrük qanunvericiliyi ilə həmin malların gömrük ödənişləri alınmadan keçirilməsinə yol verilən miqdar və dəyərindən artıq olmasın. Həmçinin həmin mallara qüvvədə olan gömrük qanunvericiliyinə uyğun olaraq qadağalar və ya məhdudiyyətlər qoyulmasın. Qeyd edək ki, bütün sərhəd-keçid məntəqələrində qanunvericiliyə uyğun olaraq qadağalar və ya məhdudiyyətlər qoyulan mallarla bağlı lövhələr asılıb.

Digər əhəmiyyətli bir fakt da ondan ibarətdir ki, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş müvafiq dəyişikliklərə əsasən, cari ildən ölkəmizdə "Yaşıl Kart" sistemi tətbiq olunur. Yeni sistemin tətbiqi öz avtomobili ilə xaricə gedənlərin, o cümlədən ölkəmizə gələn xarici avtonəqliyyat vasitəsi sahiblərinin işini xeyli sadələşdirməklə yanaşı, sərhəd-keçid məntəqələrində əlavə vaxt itkisinin də qarşısını almış olur. İndi xarici avtonəqliyyat vasitələri muxtar respublikanın ərazisinə daxil olarkən sürücü tərəfindən "Yaşıl Kart" təqdim olunduqda, sərhəd sığorta müqaviləsi bağlanmadan buraxılış həyata keçirilir.

Ümumiyyətlə, muxtar respublika gömrük infrastrukturunun modernləşdirilməsi, Azərbaycan gömrük sistemində Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin tətbiqi, müasir texniki nəzarət vasitələrindən və digər yoxlama-baxış sistemlərindən istifadə, bir sıra gömrük xidmətlərinin elektron qaydada da göstərilməsi sərhəd-keçid məntəqələrində turistlərin rahatlığını təmin edir. Bu gün Naxçıvana gələn turistlər gömrük sərhədini minimum vaxt çərçivəsində və rahatlıqla keçə bilirlər.

Digər tərəfdən, muxtar respublikamız region üçün böyük əhəmiyyət kəsb edən nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşdiyindən onun ərazisində çoxsaylı tranzit miqrantların hərəkəti müşahidə edilir. Dövlət Miqrasiya Xidmətinin qarşısında duran vəzifələrdən biri də bu qəbildən olan miqrantların ölkə ərazisində məskunlaşmalarının və qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçid kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Bu məqsədlə 2011-ci ildən etibarən miqrasiya proseslərinə ilkin nəzarət mexanizmini həyata keçirmək üçün sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin fəaliyyəti təmin olunub. Muxtar respublika ərazisinə daxil olan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin rahatlığının təmin edilməsi, onların Dövlət Miqrasiya Xidmətinə gəlmək üçün uzaq məsafə qət etməməsi, xüsusilə ölkədə miqrasiya proseslərini ciddi nəzarətdə saxlamaq məqsədilə yaradılmış miqrasiya bölmələrindən biri də Sədərək sərhəd-buraxılış məntəqəsində fəaliyyət göstərir. Miqrasiya bölməsi giriş istiqamətində muxtar respublika ərazisinə daxil olan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınmasını, çıxış istiqamətində isə dövlət nəzarətini həyata keçirir.

Bundan əlavə, Dövlət Miqrasiya Xidməti tərəfindən maarifləndirmənin müxtəlif istiqamətlərdə aparılması üçün bölmədə elektron məlumat köşkünün yerləşdirilməsi ilə miqrasiya sahəsi üzrə xidmət növləri 3 dildə – Azərbaycan, rus və ingilis dillərində yazılı və səsli şəkildə vətəndaşlara çatdırılır. Həmçinin Sədərək sərhəd-keçid məntəqəsindən muxtar respublika ərazisinə daxil olan hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs miqrasiya bölməsinin əməkdaşları tərəfindən onun pasport və ya digər sərhədkeçmə sənədləri yoxlanılarkən miqrasiya sahəsi üzrə təlimatlandırılmaqla şəxsin qeyri-leqal miqranta çevrilməsinin qarşısı alınır.

Bütün bunlar rəsmi şəxslərin bizə verdikləri məlumatlardır. Reallıqda işlərin necə aparıldığını isə, təbii ki, ən yaxşı turistlər deyə bilərlər. Qardaş ölkənin Bursa şəhərindən gələn Fatih Eryaşla söhbət edirik. İlk dəfədir, muxtar respublikaya gələn Fatih bəy deyir ki, Sədərək sərhəd-keçid məntəqəsindən çox rahat bir şəkildə Naxçıvana giriş edib: "Bilmədiyimiz nə varsa, əlaqədar şəxslər bizə dedilər, istiqamət verdilər. Bizimlə nəzakət qaydaları çərçivəsində söhbət etdilər, hörmət bəslədilər. Bu, çox yaxşı haldır".

"Bir turist kimi Naxçıvanın turizm potensialı barədə ümumi məlumatınız varmı?" sualıma isə Fatih bəy belə cavab verdi: – Çox təəssüf ki, Naxçıvan barədə internetdə məlumatlar azdır. Olan məlumatların böyük bir qismi Azərbaycan türkcəsindədir. Qalanı ya ingilis, ya da rus dilindədir. İngilis dilində olması yaxşıdır. Amma Naxçıvana daha çox qonşu ölkələrdən turist gələ bilər. Bu ölkələr isə Türkiyə və İrandır. Məsələn, Türkiyədə hamı ingilis dilində bilmir. Sadə bir Türkiyə vətəndaşı internetdə Naxçıvan barədə məlumat almaq istəsə, hansı saytdan alacaq? Mən dostlarım vasitəsilə buradakı tarixi abidələr, gəzməli-görməli yerlər barədə məlumat almasaydım, heç nə bilməyəcəkdim. Yəni turizmin inkişafı üçün hədəf ölkələr, xalqlar seçilməlidir və bu istiqamətdə işlər aparılmalıdır.

İqdır vilayətindən gələn Ramazan Turanla, Hasan İltərlə, Erkan Erdemlə söhbətimizdə onlar da Fatih Eryaşın qeyd etdiyi məqamlara toxunaraq dedilər ki, bu gün Naxçıvanda infrastruktur yüksək səviyyədədir, şəhərlər, kəndlər abadlaşıb. Hər tərəf gül-çiçək, yaşıllıqdır, gözəl təbiət mənzərələri var. Tarixi abidələr min illərdən soraq verir, səhiyyə turizmi üçün geniş imkanlar var. Ancaq bütün bunların tanıtımı zəifdir. Sərhəd-keçid məntəqəsində söhbətləşdiyim Türkiyə vətəndaşları burada onlara göstərilən xidmətdən, yaradılan şəraitdən razılıqla danışdılar.

*Artıq Sədərək sərhəd-keçid məntəqəsindən Naxçıvan şəhərinə doğru yol alırıq. Qardaş ölkədən gələn qonaqların dedikləri sözləri bir daha düşünürəm. Bir mənada onlara haqq qazandırıram. Bu gün bizim çox geniş turizm potensialımız var, lakin bunun təqdimatında hələ də çatışmazlıqlar mövcuddur. Naxçıvanda turizmlə bağlı çoxsaylı tədbirlərin keçirilməsi yaxşı haldır. Ancaq təkcə tədbir keçirməklə turizm sahəsini inkişaf etdirməyin mümkün olmadığını hamımız çox yaxşı bilirik. Göyçə festivalı kimi regiona səs salan festivalların keçirilməsi, sosial şəbəkələrdə Naxçıvanın tanıtımı ilə bağlı, heç olmasa, qonşu ölkələrin əhalisinin danışdığı dillərdə səhifələrin aktiv fəaliyyəti təbliğat işinə töhfə verərdi. Məsələn, Türkiyə mətbuatının aparıcı nümayəndələrindən ibarət heyətin Naxçıvana dəvət edilərək gəzməli-görməli yerlərlə tanış edilməli gözəl yurdumuzun turizm potensialının qardaş ölkədə tanıdılması baxımından müsbət nəticələr verə bilər.*

**Rauf ƏLİYEV**

## 2016-cı ilin yanvar-may ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-may aylarında 883 milyon 63 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artaraq 1983,1 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 410 milyon 601 min 300 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 3,1 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-may ayları ərzində muxtar respublikada əsas kapitala 379 milyon 900 min manat həcmində investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 355 milyon 596 min manatı və ya 93,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin həcmi 19 milyon 805 min manatdan artıq olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 16 milyon 218 min 800 manat olmaqla, bir il öncəki göstəricini 1,6 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-may ayları ərzində 47 milyon 152 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 4,2 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 8,3 min ton ət, 34,5 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 1,5 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-may aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 658 milyon 809 min 200 manat, onun hər bir nəfərə düşən həcmi isə 1 faiz yüksələrək 1479,5 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 401,8 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 iyun 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 57355-ə çatmışdır ki, bunun da 51429-u və ya 89,7 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-may aylarında açılmış 8998 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2016-cı il tarixə 1147-yə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-may aylarında muxtar respublikada 140698,2 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 2,2 faiz artaraq 125480,7 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 110 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 18656,4 min manat məbləğində kreditlər verilmişdir.

* * *

2016-cı ilin yanvar-may aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 2347,4 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikaya 147 min 542 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4 faiz və ya 5675 nəfər çoxdur.

* * *

1 may 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4803 nəfər və ya 1,1 faiz artaraq 445830 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Ağbulaq İstirahət Mərkəzinin növbəti qonaqları Boks Federasiyasının idmançıları olub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Boks Federasiyasının birgə təşkilatçılığı ilə iyunun 20-21-də Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində 45 boksçunun istirahəti təşkil edilib.***







Mərkəzdə Boks Federasiyasının idmançıları üçün istirahət vaxtlarının təşkili istiqamətində görülən işlərlə maraqlandıq, onların fikirlərini öyrəndik. Federasiyanın məşqçi-müəllimi Əli Tağıyev bizimlə söhbət zamanı bildirdi ki, idmançılar üçün Ağbulaq İstirahət Mərkəzində konsert proqramları təşkil edilib, vətənpərvərlik mövzusunda film nümayiş olunub, müxtəlif idman yarışları keçirilib. Bununla yanaşı, boksçuların Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanışlığı, onların "Ağbulaq" bulağına yürüşü təşkil olunub. İdmançılar arasında dostluq və yoldaşlıq münasibətlərinin qurulmasında bu cür istirahətlərin, gəzintilərin əhəmiyyəti böyükdür. Burada keçirilən müxtəlif idman yarışları yeniyetmə uşaqların idman potensialının inkişafına müsbət təsir göstərir. Mərkəzə gəldiyimiz gündən bəri apardığımız müşahidələrdən sonra deyə bilərəm ki, boksçuların burada yaxşı istirahət etmələri ilə yanaşı, onların digər sahələrlə də maraqlanmaları üçün hər bir şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Kamran Allahverdiyev istirahət barədə danışaraq qeyd etdi ki, onların asudə vaxtının çox hissəsini yay tətili təşkil edir: "Yayın gəlməsini səbirsizliklə gözləyirik. Çünki həm məşq etmək, həm də istirahət üçün vaxtımız çox olur. Naxçıvanın bölgələrini gəzmək, görməli yerləri ilə tanış olmaq çoxdankı arzum olub. İndi bu arzum yerinə yetirilib və istirahət mərkəzində digər idmançılarla gözəl gün keçirdik".

Qadir Məmmədov isə bildirdi ki, Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir, gəlir. Təbiəti, havası çox gözəldir. Bu tədbiri təşkil edənlərə minnətdardırlar.

Boks Federasiyasının daha bir yetirməsi Əbülfəz Orucov da təəssüratlarını bizimlə bölüşdü: "Müxtəlif idman yarışlarının keçirilməsi, əyləncəli oyunların təşkili ürəyimizcə oldu. İstirahətlə yanaşı, eyni zamanda yüngül fiziki hərəkətlər də etdik. İdmançılar üçün belə istirahətlərin təşkili sevindirici haldır. Burada həm yaxşı dincəldik, həm də digər idmançılarla dostluq əlaqələri yaratdıq".

Qeyd edək ki, mərkəzlə ilk tanışlıqdan sonra idmançılar nahar yeməyinə yollanıblar. Sonra proqrama uyğun olaraq müxtəlif stolüstü oyunlarda – şahmat, dama idman növlərində mübarizə aparıblar. Daha sonra "Ağbulaq" bulağına yürüş keçirilib. Şam yeməyinin ardınca isə boksçular üçün sənədli film nümayiş etdirilib.

İstirahətin ikinci günündə öncə gimnastik hərəkətlər yerinə yetirilib. Səhər yeməyindən sonra mərkəzin stadionunda mini-futbol və voleybol yarışları təşkil olunub. Əyləncəli saatın ardınca federasiyanın yetirmələrinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

***Dünən Şahbuz rayonunun Keçili kəndində kənd yaşıl turizminin inkişaf etdirilməsi ilə bağlı maarifləndirici tədbir keçirilib. Qeyd edək ki, bu, Mədəniyyət və Turizm Nazirliyinin kənd yaşıl turizmi ilə bağlı cari ildə keçirdiyi yeddinci tədbirdir. Bundan əvvəl analoji tədbirlər muxtar respublikanın Kükü, Ərəfsə, Bist, Çənnəb, Gümüşlü, Tivi kəndlərində keçirilib.***

## Kənd yaşıl turizmi ilə bağlı növbəti maarifləndirici tədbir

Keçili kəndinin sakinlərinin iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Piri Nağıyev "Şahbuz rayonunun Keçili kəndinin turizm potensialı" mövzusunda çıxış edib. Tədbir iştirakçılarına kənd yaşıl turizmi haqqında ətraflı məlumat verilərək bildirilib ki, Keçili kəndində bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar və şərait mövcuddur. Kənddə son illər infrastruktur yenidən qurulub, yollar abadlaşdırılıb, burada xidmət obyektləri inşa olunub. Keçili kəndində müasir yaşayış evləri tikilib ki, bu evlərdəki otaqlardan birini turistlərə kirayə verməklə kənd sakinləri gəlir əldə edə bilərlər.

Qeyd olunub ki, zəngin təbiətimiz, ekoloji cəhətdən təmiz qida məhsullarımız, şəfalı sularımız muxtar respublikada ekoloji və kənd yaşıl turizminin inkişafını şərtləndirən əsas amillərdəndir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov "Kənd yaşıl turizmi və bu sahədə gəlirlərin formalaşdırılması" mövzusunda çıxış edib.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova "Turizm İnformasiya Mərkəzinin kənd yaşıl turizminin təbliğində rolu" mövzusunda çıxışında mərkəzin muxtar respublikanın təbii mənzərələri, tarixi abidələri və görməli yerləri haqqında apardığı təbliğat işindən danışıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## *"Ezop"* tamaşası culfalı teatrsevərlərə təqdim edilib

***Dünən Babək Rayon Xalq Teatrı "Ezop" tamaşasını Culfa Rayon Mədəniyyət Evində ictimaiyyətə təqdim edib.***

Tamaşanın nümayişindən əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev çıxış edərək bildirib ki, son illər xalq teatrlarına diqqət və qayğı artırılıb. Muxtar respublikamızda fəaliyyət göstərən 5 xalq teatrından 2-si son illər yaradılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin iş planına əsasən, xalq teatrları tamaşalarını muxtar respublikanın başqa rayonlarında da göstərirlər. Bu gün Culfa rayonunda göstərilən "Ezop" tamaşasını xalq teatrı ötən illərdə Ordubad və Kəngərli rayonlarının tamaşaçılarına təqdim edib.

Bildirilib ki, 2009-cu ildə yaradılan xalq teatrı maraqlı və mövzu baxımından müxtəlif tamaşalar hazırlayıb. Bu illərdə xalq teatrının hazırladığı "Yollara iz düşür", "İkinci səs", "Məhəbbət nişanəsi", "Solğun çiçəklər", "Ana", "Ezop", "Yağışdan çıxdıq, yağmura düşdük", "Xəcalət" və başqa tamaşalar maraqla qarşılanıb.

Dünya və Azərbaycan teatrlarının səhnəsində dəfələrlə tamaşaya qoyulan "Ezop" əsərinin mövzusu eradan əvvəl VI əsrdə yaşamış qədim yunan təmsilçisi Ezopun həyatından götürülüb.

"Ezop" tamaşasında qədim yunan təmsilçisinin ağıllı, təmkinli və fəlsəfi fikirləri insanı düşündürür. Həvəskar aktyor, xalq teatrının səhnəsində bir sıra maraqlı rollar oynamış Firdovsi Səfərov Ezop obrazını təhqirlərə, işgəncələrə əyilməyən, mütiliklə barışmayan, zəkası, ağlı və hazırcavablığı ilə seçilən bir obraz kimi canlandırmağa çalışır. Ezop tamaşada qəlbən saf, təmiz, vicdanlı adam kimi tamaşaçının yadında qalır. Tamaşanın əsas obrazlarından olan Ksanfın mənfiliklərini, insanlığa zidd aləmini aktyor Yusif Əliyev bacarıqla təqdim edir. Ksanf arvadı Kleya və arvadının kənizi Melita (aktyor Zeynəb Aslan) qarşısında daxili aləminin çox kasıb olduğunu göstərir.

"Ezop" tamaşasında həvəskar aktyorlar İsmayıl Qurbanov (Aqnostes), Əlləddin Əsədov (Həbəş), Səbinə Corayeva, Kənan Feyzullayev, Elsevər Məmmədov, Stella Babayevanın (qullar) tamaşanın uğurlu alınmasındakı ifaları da yaddaqalandır.

Qeyd edək ki, "Ezop" tamaşasının quruluşçu rejissoru Yusif Əliyev, tərtibatçı rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda buraxılış imtahanları keçirilib



*Dünən muxtar respublikamızın orta ümumtəhsil müəssisələrinin IX və XI sinif şagirdləri üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirilib.*

İmtahanlar Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında olmaqla, ümumilikdə, 12 mərkəzdə və Heydər Əliyev adına Hərbi Liseydə olub. İlk olaraq səhər saat $10^{00}$-da IX sinif şagirdləri imtahan veriblər. İki saat ərzində şagirdlər Azərbaycan dili və riyaziyyat fənlərindən cəmi 60 sual üzrə biliklərini sınayıblar, bir inşa yazı mövzusu üzrə bacarıqlarını ortaya qoyublar.

Saat $15^{00}$-da isə XI sinif şagirdlərinin son buraxılış imtahanlarına start verilib. Şagirdlər Azərbaycan dili, riyaziyyat və xarici dildən, xarici dil tədris olunmayan məktəbləri bitirənlər isə kimya fənnindən suallara cavab tapıblar və inşa yazı işləyiblər.

Qeyd edək ki, bu il Naxçıvan Muxtar Respublikası üzrə 3786 nəfər IX sinfi, 3348 nəfər XI sinfi bitirib. Əldə etdiyimiz məlumata görə, imtahanlarda iştirak fəallığı yüz faiz olub.

İmtahanların nəticələri yaxın günlərdə elan olunacaq.

**Xəbərlər şöbəsi**

Xalq təqvimi

# “Orucun 15-i” mərasimi

***Dini-mənəvi dəyərlər içərisində ən geniş yayılan və ən çox diqqəti cəlb edən mərasimlərdən biri orucluqdur. Oruc tutmaq İslam dininin müsəlmanlar qarşısında qoyduğu beş əsas vəzifədən biridir. Orucluq İslamın təməl şərtlərindən olub, hər bir müsəlmana fərz qılınıb. “Qurani-Kərim”in hökmünə görə, xəstələr, uşaqlar və səfərdə olanlardan başqa hər bir müsəlman oruc tutmalıdır. Onu da qeyd edək ki, bütün səmavi dinlərdə müəyyən formada orucluq olub.***

AMEA-nın müxbir üzvü Hacıqadir Qədirzadə yazır ki, Ramazan orucu hicrətin ikinci ili (622-ci il), şaban ayının 10-da fərz buyurulub. Belə ki, Həzrəti Peyğəmbərimiz həyatında 9 dəfə Ramazan orucu tutub. Azərbaycan sovetləşəndən sonra şəriətin başqa adətləri kimi, orucluğa qarşı da barışmaz mübarizə aparılmağa başlanılıb. O dövrdə bolşevik təbliğatında orucluq da məhərrəmlik, Novruz və Qurban bayramları kimi mövhumatçıların uydurması sayılırdı. Sovet mətbuatı məsələyə tamam əks mövqedən yanaşaraq yazırdı ki, orucluq orqanizmi əldən salır və sağlamlığı məhv edir.

Ancaq əksinə, orucluq tibbi və sağlamlıq nöqteyi-nəzərdən və əxlaqi baxımdan çox əhəmiyyətlidir.

Ordubad bölgəsinin bəzi kəndlərində və Ordubad şəhərinin özündə Ramazan ayının 15-ci günündə “Orucun 15-i” adlı mərasim keçirərdilər. Orucluq 15 gün keçəndə yarı olur. Mərasimin keçirilməsi də bununla əlaqələndirilir. Mərasim zamanı uşaqlar bir yerə yığışıb qapı-qapı gəzib pay yığardılar. Pay yığılan zaman bu sözlər uşaqlar tərəfindən oxunardı:

*Orucun 15-dir, gəldik sizə,*
*Orucun niyazını verin bizə.*
*Xanım, ayağa dursana,*
*Boşqabı doldursana.*

*Oğlun, qızın var olsun,*
*Doğduğun oğlan olsun,*
*Sonbeşiyin qız olsun,*
*Açılsın, sünbül olsun.*

Bu deyim qurtardıqdan sonra uşaqların biri “Rəbbi Cəlil boşqabı doldurub gəlir” deyərdi. Bu zaman uşaqların hamısı xor ilə “ərik qurusu gəlir, alana gəlir” deyərdilər. Bir sözlə, ürəkləri nə istəyərdisə, onun adını çəkərdilər. Kimsə pay verməsə, onlara tərəf üz tutub deyərdilər:

*Pay verənin oğlu olsun,*
*Vermiyənin qızı olsun.*

Tanınmamaq üçün uşaqlar üzlərini gizlədər və ya bəzəyərdilər. Sonda uşaqlardan biri yığılmış payı öz aralarında bərabər şəkildə bölərdi.

Onu da qeyd edək ki, bu mərasimə bir neçə gün qalmış hər evdə hazırlıq görərdilər. Həmin gün axşam iftarını zəngin süfrə ilə açardılar, sonra nişanlı qız evinin valideynləri bəyi görmək üçün oğlan evinə gələrdilər. Ailənin üzvlərinə, xüsusilə bəyə müəyyən hədiyyələr gətirərdilər. Bundan əlavə, orucun 15-nə qədər heç kimi iftar süfrəsinə dəvət etməzdilər. Bir daha bildirək ki, bu mərasim ancaq Ordubad şəhərinə və rayonun bir neçə kəndinə aiddir.

Kəngərli rayonunun Xok kəndindən isə toplanmış materiallara görə, Ramazan ayının qurtarmasına 3 gün qalmış məhəlli xarakterli bir mərasim keçirərdilər. Günortaya kimi evlərdə buğda qovurardılar, qız-gəlinlər təzə paltarlar geyər, oğlan uşaqları xoruz döyüşdürər, əyləncəli işlərlə məşğul olardılar. Mərasim günortaya qədər davam edərdi.

1993-cü ildən Ramazan bayramı dövlət səviyyəsində keçirilir. Ramazan bayramı 2 gün qeyd olunur, həmin günlər qeyri-iş günləri sayılır.

# Yayla bağlı təqvim adəti – “*Susəpən*” bayramı

*Xalq təqviminə uyğun olaraq xalqımız qışı qarşılayarkən çillə mərasimi, yazı qarşılayarkən Novruz bayramı keçirir. Ancaq nədənsə yayın və payızın qarşılanması üçün bir mərasim və yaxud bir bayram keçirilmir. Keçirilibsə də bu günə qədər nə elm aləminə bəllidir, nə də xalq yaddaşında qalıbdır. Etnoqrafik materiallara əsaslanaraq, demək olar ki, Naxçıvan ərazisində yayın girməsi ilə bağlı, bütövlükdə, əhalinin təntənəli şəkildə keçirdiyi heç bir bayram və mərasim yoxdur. Ancaq son dövrün araşdırmalarından və toplanmış etnoqrafik çöl materiallarından məlum olur ki, Ordubad bölgəsində yayın girməsi ilə əlaqəli “Susəpən” mərasimi qeyd edilərdi.*

İyun ayının 21-də yazın bitib, yayın girdiyi gün Ordubad bölgəsində Gilançay vadisinin yuxarı hissəsində keçirilən “Susəpən” adlı mərasim zamanı ətraf kəndlərin insanları da şənliyə qoşulardılar. Mərasimdə əhali səhər erkəndən Gəmiqaya yaxınlığındakı Bibi Qətər pirini, Qara piri ziyarət edərdilər. Ziyarət üçün əvvəlcədən hər cür hazırlıq işləri görülərdi. İnanc yerlərinə gedərkən yolboyu insanlar bir-birinin üzərinə su çiləyərdilər. Pirlər ziyarət edildikdən sonra insanlar Gəmiqaya abidəsinə doğru üz tutardılar. Əsl şənliklər burda başlanılardı. Xüsusi bayram yeməkləri hazırlanar, at yarışları, yallı və sair oyunlar keçirilərdi. Küsülülər məclisə gətirilərək barışdırılardı. XX yüzilliyin 80-ci illərinə qədər mövcud olan bu mərasim gecədən səhərə qədər davam edərdi. Maraqlı məsələlərdən biri yayın ilk günü, iyunun 22-si insanların Gəmiqaya ətrafına yığışıb Günəşi qarşılaması idi. Deməli, mərasim iki gün qeyd edilərdi. Bayramın ikinci günü birinci günə nisbətən daha təmtəraqlı və adamların çoxluğu ilə seçilərdi. Mərasimdə iştirak edənlər Günəş doğmamış qayalarda olan şehi üzlərinə sürtərdilər. Sonra “Gözəllər” adlanan çeşmədən su götürər və bu suyu müqəddəs hesab etməklə növbəti ilin həmin vaxtına qədər saxlayar, onu bərəkət və sağlamlıq vasitəsi sayardılar. Qeyd edək ki, buradan hər gün deyil, məhz həmin gün götürülən suya inam vardır. Məlumdur ki, su ilə təmizlənmə, çiləşmə, suya tapınma Naxçıvanda axır çərşənbənin səhərisi günü həyata keçirilir. Bu da İslamdan öncə xalqımızın suya tapınması, suya kult kimi baxması ilə əlaqəlidir.

“Susəpən” mərasimində Gəmiqayanın dörd tərəfində qurban kəsərdilər və kəsilmiş qurbanları qohumlara, qonşulara, kimsəsizlərə paylayardılar. Qurban kəsilməsinə “Bilqamıs” dastanında da rast gəlinir. Bəhs olunan mərasimlə bağlı digər türk xalqlarında da oxşarlıq mövcuddur. Çuvaşlarda bu mərasimə bənzəyən “Tarla Qurban” adlı mərasim var idi. Mərasim zamanı insanlar yayın başlanğıcında su kənarlarına toplaşıb göyə qurban verərdilər. Mayya mədəniyyətinin daşıyıcıları da müasir təqvimlə iyun ayının 22-də, yəni ən qısa yay gecəsində qurbanvermə mərasimi keçirərdilər.

Mərasim başa çatanda camaat yenidən çiləşə-çiləşə geri dönər, bununla da, mərasim başa çatardı.

AMEA-nın müxbir üzvü Hacıqadir Qədirzadə yazır ki, “Susəpən” mərasiminin Nuh Peyğəmbərlə bağlılığı vardır, ancaq o, bir tərəfdən astronomik təqvimlə də səsləşir. Onu da qeyd edək ki, bu mərasim haqqında ilk məlumat elmi ədəbiyyata Hacıqadir Qədirzadə tərəfindən daxil edilib.

Bayramın “Susəpən” adlandırılması, burada icra edilən adət və inanclar mərasimin genetik cəhətdən Azərbaycan türklərinə bağlandığını ciddi şəkildə sübut edən amillərdəndir. Hansı adətə, ənənəyə, inanc sisteminə nəzər salsaq, orda Azərbaycan türklərinə bağlılıq görürük.

Əslində, bu kimi bayramlar milli mədəniyyətimizin tarixi səhifələri olmaqla, eyni zamanda xalqımızın dünyagörüşü və inamları ilə bağlı tapınma ayini, mərasim şənliyi və əxlaq qaydaları toplusudur.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Profilaktik tibbi müayinələr davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası ötən şənbə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumları profilaktik müayinələrdən keçirib.***

Müəssisənin tibbi sanitar hissəsinin həkim və orta tibb işçilərinin də fəal iştirakı ilə həkim briqadası tərəfindən gün ərzində bütün məhkumlardan ümumi, hepatit B, C, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülüb. Sonra yüksəkixtisaslı həkimlər tərəfindən müayinələr aparılıb. Aşkarlanan xəstəliklər məhkumların tibbi kitabçalarına qeyd olunub və dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülüb, həmçinin mövsümi xəstəliklər barədə səhiyyə maarifi işləri aparılıb. Profilaktik tibbi müayinələr iyunun 20-də də davam etdirilib, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən məhkumların ftiziatr müayinələri həyata keçirilib.

* * *

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası isə Babək rayonunun Qahab kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.

Pediatr, stomatoloq, nevropatoloq, endokrinoloq, ginekoloq, həkim rezident və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 35 nəfər uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. 30 nəfər valideynlə səhiyyə maarifi işi aparılıb, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələrinin cari ildə beynəlxalq turnirlərdə qazandığı uğurlara daha biri əlavə olunub.***

# Güləşçimiz beynəlxalq turnirin qalibi olub



Belə ki, Ukraynanın Odessa şəhərində sərbəst güləş üzrə keçirilən XII Avropa Beynəlxalq Turnirində Naxçıvan güləş məktəbinin yetirməsi Abbas Məmmədov da mübarizə aparıb. 34 kiloqram çəki dərəcəsində turnirdə iştirak edən güləşçimiz bütün rəqiblərinə tam üstünlüklə qalib gələrək finala yüksəlib. Həlledici qarşılaşmada Abbas Məmmədovun rəqibi rusiyalı güləşçi olub. İdmançımız final görüşündə də qalib gələrək turnirin baş mükafatını qazanıb.

Sonda idmançımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim olunub.

# Boksçumuz Avropa birinciliyini üçüncü pillədə başa vurub

Rusiyanın Anapa şəhərində keçirilən gənclər arasında boks üzrə Avropa çempionatında Azərbaycan yığması da iştirak edib. Millimizin



heyətində 60 kiloqram çəki dərəcəsində rinqə Naxçıvan boks məktəbinin yetirməsi Sərxan Əliyev çıxıb. Boksçumuz ilk mərhələdə alman həmkarı Yabs Germanı məğlub edib. İkinci görüş isə daha çox diqqət mərkəzində olub. Belə ki, bu mərhələdə Sərxan Əliyev Ukraynanı təmsil edən erməni boksçu Zoravor Petrosyanla üz-üzə gəlib. Görüşün hər üç raundunda qələbə qazanan boksçumuz 1/4 finala yüksəlib. Yarımfinal yolunda həmyerlimiz moldovalı Aleksandr Paraşviçlə qarşılaşıb və böyük üstünlüklə qələbəni bayram edib. Həlledici görüşdə iştirak etmək üçün Sərxan Əliyev İrlandiya təmsilçisi Oliver Keyran Makkarti ilə döyüşüb. Hakimlərin qərəzli qərarlarından sonra rinqi məğlub tərk edən boksçumuz qitə birinciliyini üçüncü pillədə başa vurub.

Sonda idmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti

### *2016-2017-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ikinci ali təhsil almaq üçün qiyabi şöbəyə tələbə qəbulu elan edir*

| № | İxtisaslar | Qəbul planı |
|---|---|---|
| 1. | Riyaziyyat və informatika müəllimliyi | 15 |
| 2. | Riyaziyyat müəllimliyi | 15 |
| 3. | İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi | 15 |
| 4. | İqtisadiyyat | 20 |
| 5. | Mühasibat uçotu və audit | 20 |
| 6. | Beynəlxalq münasibətlər | 15 |
| 7. | Tarix müəllimliyi | 20 |
| 8. | Azərbaycan dili və ədəbiyyat müəllimliyi | 20 |
| 9. | Hüquqşünaslıq | 45 |
| 10. | Xarici dil müəllimliyi (ingilis dili) | 20 |
| 11. | Musiqişünaslıq | 15 |
| 12. | Biologiya müəllimliyi | 15 |
| 13. | Kimya müəllimliyi | 15 |

İkinci ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Naxçıvan Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. İkinci ali təhsil müvafiq ixtisas üzrə bakalavr (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsil proqramı arasındakı fərq nəzərə alınmaqla, xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır. Şəxsin ikinci ali təhsil üzrə seçdiyi ixtisas onun tutduğu vəzifənin profilinə uyğun olmalıdır.

İkinci ali təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə;*
- *ali təhsil haqqında sənədin (diplomun) və qiymət kitabçasından çıxarışın (diploma əlavə) notariusda təsdiq olunmuş surətləri;*
- *3x4sm ölçüdə 6 ədəd fotoşəkil;*
- *sağlamlıq haqqında arayış;*
- *əmək kitabçasından çıxarış;*
- *şəxsiyyət vəsiqəsinin surəti.*

Şəxsiyyət vəsiqəsi və diplom şəxsən təqdim olunur.

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnaməni təqdim etməlidirlər.

Sənədlər 2016-cı il iyun ayının 20-dən iyul ayının 20-dək hər gün (istirahət günlərindən başqa) saat $10^{00}$-dan $16^{00}$-dək Naxçıvan Dövlət Universitetində qəbul edilir (Əsas bina 2-ci mərtəbə, 207 saylı otaq).

İkinci ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müəyyən edilmiş qaydada müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə müvafiq ikinci ali təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər. Təhsil haqqı müqavilə əsasında müvafiq ixtisaslar üzrə uyğun qaydada ödənilir.

***Ünvan: Naxçıvan şəhəri,***
***Universitet şəhərciyi,***
***əsas bina, telefon: 545-45-59***
***Rektorluq***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 484